# Xalq məhəbbəti



Hər bir xalqın tarixində və taleyində unudulması mümkün olmayan hadisələr çox, şəxsiyyətlər isə az olur. Xalqın tarixinə yazılan şəxsiyyətləri zaman da unutmur, ictimai-siyasi burulğanlarda varlığını qoruyub saxlayan xalq da. Təbii ki, talelərə yazılan sərt sınaqlardan əzmlə çıxaraq xalqın sevimlisinə çevrilmək o qədər də asan deyil, bunu tarix dəfələrlə təsdiqləyib. Bu şərəf, əlbəttə, çoxlarına nəsib olmayan xoşbəxtlikdir. İctimai-siyasi fəaliyyəti və bütövlükdə mənalı həyatı örnəyə çevrilən ulu öndər Heydər Əliyevin də məhz belə şəxsiyyət kimi tanınmasını və dühası qarşısında baş endirilməsini şərtləndirən amillər kifayət qədər çoxdur.

...On iki il bundan öncə də paytaxt Bakı sükut, qüssə və hüznlə kədərə bürünmüşdü. O zaman hüznlü baxışlardan, kədər və qüssədən damcılayan göz yaşları yanaqları yandırdı. Dünən, dekabrın 12-də isə Fəxri xiyabanda ulu öndərin məzarını ziyarət edənlərin çöhrəsində bir qürur vardı. Bunun isə səbəbi var. Ən əsası isə odur ki, ulu öndərin memarı olduğu müasir Azərbaycan inkişaf sürətinə görə dünyanın aparıcı dövlətləri sırasında olduğunu təsdiqləyir. Ulu öndərin müəyyənləşdirdiyi siyasi kurs dövlət başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ziyarətə gələnlərin yaş fərqi də onu göstərirdi ki, xalqın qəlbində əbədi məşəl yandıranlar cismən uzaqlaşır, haqqın dərgahına qovuşurlar, amma mənən yaşayır və əbədiyyət simvoluna çevrilirlər.

Ulu öndərin şəxsiyyətinə hörmət və ehtiram təkcə mənsub olduğu ölkədə deyil, onun hüdudlarından çox-çox uzaqlarda da özünü daim göstərir. Bu ümumxalq məhəbbətin şahidinə çevrilənlərin arasında əcnəbilər də az deyildi. İstər ölkəmizdə fəaliyyət göstərən diplomatik korpusun nümayəndələri, istərsə Azərbaycanın füsunkar təbiətinin gözəlliyini gözləri ilə görməyə gələnlər də ziyarətçilərin arasında idilər. Yaşından və vəzifəsindən asılı olmayaraq ölkənin yüz minlərlə vətəndaşı (nəinki paytaxt sakinləri, respublikamızın ayrı-ayrı bölgələrindən ziyarətə gələnlərin sayı-hesabı bilinmirdi) ulu öndərə sonsuz məhəbbətini ifadə etmək üçün Fəxri xiyabana üz tutmuşdu...

Bakı şəhər sakinləri Adil Şükürov ixtisasca həkim, Məzahir Səfərov energetik, Heydər Heydərov isə iqtisadçı olduğunu və hər il ulu öndərin məzarını kollektiv şəkildə ziyarət etdiklərini bildirdilər. A.Şükürov dedi ki, Azərbaycanın regionda lider dövlətə çevrilməsi xalqımızın ümummilli liderinin - həyat və fəaliyyətini bütünlüklə müstəqil respublikamızın çiçəklənməsinə, onun dünya birliyində layiqli yer tutmasına yönəltmiş Heydər Əliyevin xidmətidir: "Ümummilli liderin uzaqgörən və alternativsiz siyasəti bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Müasir Azərbaycan dövlətinin qurulmasında və dövlətçiliyinin qorunub saxlanmasında xilaskarlıq simvoluna çevrilən ulu öndər Heydər Əliyevin misilsiz xidmətlərini saymaqla qurtarmaz. Bizim hər birimizin bu ziyarəti ölkə vətəndaşının Vətənə və dövlətinin qurucusuna əbədi ehtiramı deməkdir".

Diqqətçəkən məqamlardan biri də ziyarətçilərin əksəriyyətinin kollektiv halında gəlmələri idi. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin Bakı şəhəri Nizami rayonu üzrə sektor müdiri, Qubadlı rayonundan məcburi köçkün Rafiq Kazımov müstəqil dövlətimizin uzaq olmayan tarixindən, ötən əsrin ortalarındakı ictimai-siyasi vəziyyətinə və ulu öndərin onu aqrar bölgədən sənaye ölkəsinə necə çevirməsindən və bugünkü inkişafındakı misilsiz xidmətlərindən söz açdı: "Ulu öndərin həyat və fəaliyyətinə nəzər salanda qürur hissi keçiririk. Bilirik ki, hələ gənclik illərindən fəal ictimaiyyətçi kimi öz həmyaşıdlarından fərqlənən Heydər Əliyev zamanın qalibi kimi tarixə imza atmaq yolu ilə irəlilədi. Çoxlarının sona kimi gedə bilmədiyi bu çətin və şərəfli yol dövləti və xalqı işıqlı sabahlara apardı. İstər birinci, istərsə də ikinci dəfə hakimiyyətdə olduğu dövrlərdə ulu öndər əsl xalq və millət, Vətən və dövlət adamı olduğunu işıqlı əməlləri, əməli fəaliyyəti ilə təsdiq etdi".

"Holidays tour" turizm şirkətinin kollektivi də ziyarətçilərin sırasında idi. Şirkətin təsisçisi Kifayət Hüseynova kollektivin fikrini ifadə edərək dedi ki, ulu öndərin yalnız özünəxas cəsarəti, möhkəm iradəsi, əsl liderə məxsus bacarığı Azərbaycanımızın bugünkü inkişafına səbəb olub: "Ümummilli liderin dövlətçiliyimizin möhkəmləndirilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması, dünyaya səpələnmiş soydaşlarımızın birliyini yaratması heç vaxt yaddan çıxmaz. Bunlardan ən vacibi isə dünyanın aparıcı dövlətlərinin strateji maraqlarını Azərbaycanın mənafeyi istiqamətində birləşdirməyə nail olması idi. Ulu öndər bunu siyasi iradəsi və yüksək təfəkkürü ilə bacardı. İctimai-siyasi fəaliyyətini, daha doğrusu, mənalı ömrünün bir qərinədən artıq dövrünü xalqımızın və müstəqil dövlətimizin inkişafına həsr edən, bu yolda misilsiz xidmətlər göstərən Heydər Əliyev zamanın tarixini yaradan və yaşadan, onun fövqündə dayanmağı bacaran, dövlət idarəçiliyini kamil bilən fenomen kimi əbədiləşdi".

Həmsöhbətimiz Nahidə Əliyeva 5 yaşlı oğlu Muradla Rusiyadan gəlib. BDU-nun məzunu olmuş həmyerlimiz Nijni-Novqorodda yaşayır. Həyat yoldaşı Fikrət Əliyev həkim, o, özü isə şəhər Sosial Müdafiə Fondunun şöbə müdiridir. Ulu öndərə əbədi ehtiramının sübutudur ki, ailəsi ilə birlikdə hər il ziyarətə gəlirlər. Nahidə xanım bildirdi ki, bu gün saysız-hesabsız ziyarətçilərdən biri olmağından qürur hissi keçirir: "Fəxr edirik ki, xalqımızın belə bir şəxsiyyəti var. Dünya xalqları da ümummilli liderimizin şəxsiyyətinə dərin ehtiram göstərir. Burada gördüyümüz izdiham isə dahi öndərin bu gün milyonların qəlbində yaşamasının sübutudur. Gələcək nəsillər tarixi şəxsiyyətimizin həyat və fəaliyyətini daim özlərinə örnək biləcəklər".

Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin fəallarından olan Həbib Misirov dedi ki, Azərbaycan xalqının xoş və firavan həyatına ömrünü həsr edən ümummilli lider Heydər Əliyevin bəşəri şəxsiyyət olması yeni tariximizin bütün səhifələrində özünü təsdiqləyir: "Dövlətimizin gənclər siyasəti bu gün çox uğurla və məqsədyönlü şəkildə həyata keçirilir. Azərbaycan gənci elmi və intellektual dünyagörüşü ilə dünyadakı həmyaşıdları arasında seçilir. Dünyanın ən aparıcı ali təhsil ocaqlarında elmin müasir nailiyyətlərini öyrənən gənclik gələcəyin kadrlarıdır. Bu potensiala diqqət yetirən dövlət başçımızla fəxr duyuruq. Həm də ona görə ki, o, öz ətrafında yüz minlərlə vətənpərvər gənci birləşdirən Yeni Azərbaycan Partiyasının lideridir. Biz gənclər ulu öndər Heydər Əliyevin siyasi kursunu uğurla və məqsədyönlü şəkildə davam etdirən liderimiz - Azərbaycan Prezidentinin rəhbərliyi ilə Vətənimizi daha da inkişaf etdirəcəyik. Bu erməni təcavüzünə məruz qalmış torpaqlarımızın azad olunmasında da vacib faktorlardan biridir. Bunu düşmən tərəfin gəncliyi də artıq etiraf etmək məcburiyyətindədir. 2003-cü il dekabrın 12-də Azərbaycan xalqı ağır itki ilə üzləşdi. Ümummilli lider Heydər Əliyev kimi tarixi şəxsiyyətini itirən xalqımızın həmin günlərdə keçirdiyi kədər böyük idi. Lakin ulu öndər özü qədər inandığı siyasi varisini sevimli xalqına və müstəqilliyini bərpa etmiş Azərbaycan dövlətinin bu gününü və sabahını etibarlı əllərə tapşırıb gedirdi. Məhz bu baxımdan nigarançılığa əsas yox idi".

Kənan Cəfərov da həmfikrinin sözlərinə qoşularaq bildirdi ki, müstəqil Azərbaycan dövlətinin gəncliyini təmsil etdiyi üçün qürur hissi keçirir: "Gəncliyin üzərinə düşən şərəfli missiya isə Vətənə layiqli övlad olmaqdır. Biz bunun üçün çalışmalıyıq. Çünki dövlətimizin biz gənclərə qayğısına yalnız bununla cavab verə bilərik".

Ramin Bəylərzadə, Sənan Sadıqzadə, Anar Məhəmmədov, Elçin Əliyev, Anar Əliyev də ziyarətçilərin arasındakı gənclərdəndirlər. Elçin Əliyev Hərbi Aviasiya Akademiyasının tələbəsidir. Dostlarının fikrini ümumiləşdirib belə ifadə etdi: "Gəncliyin Heydər Əliyevin ideyaları ruhunda tərbiyə olunması, müdrik rəhbərimizin qurub-yaratdığı müstəqil dövlətimizin şanlı tarixinin onlara elmi əsaslarla mənimsədilməsi və təbliği vacib məsələdir. Azərbaycan yaşadıqca ulu öndərin adı onunla qoşa çəkiləcək. Ulu öndərin misilsiz xidmətləri xalqımızın gözü önündədir. Biz ulu öndərin xalqa sədaqətli xidmət mədəniyyətinin təbliğatçılarına çevrilməli, vətəni onun kimi sevməli və sevdirməliyik".

Kifayət qədər mürəkkəb və keşməkeşli bir dönəmdə xalqının köməyinə yetən ulu öndər Heydər Əliyev Azərbaycanın inkişaf tarixində silinməz izlər qoydu. Onun titanik fəaliyyəti nəticəsində Azərbaycan dünyanın siyasi meydanında öz sözünü deyə bilən qüdrətli dövlətə çevrilir. Başqa xalqların, millətlərin əsrlərlə əldə elədiyini Azərbaycan xalqı qısa müddətdə gerçəkləşdirir.

...Ümummilli liderin ziyarəti gecəyə qədər çəkdi. Xalqımızın çoxsaylı nümayəndələri müstəqil dövlətimizin memarı və qurucusunun müqəddəs məzarını ziyarət etmək üçün dəstə-dəstə Fəxri xiyabana üz tutdu. Ziyarətçilər belə qüdrətli dövlətin banisi olduğu üçün ümummilli liderlə daim fəxr edəcəklərini dilə gətirir, cənab Prezident İlham Əliyevin ətrafında sıx birləşməklə, respublikamızın inkişafında öz əmək və zəhmətlərini bundan sonra da əsirgəməyəcəklərini əminliklə ifadə edirdilər.

*Məhəmməd NƏRİMANOĞLU,*
*Fərman BAĞIROV (foto),*
*"Azərbaycan"*